*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    18 dekabr 2019-cu il    № 98 (2415)    Qiymәti 30 qəpik


## Prezident İlham Əliyev 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında Sərəncam imzalayıb

*Prezident İlham Əliyev 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazisində və ölkəmizin hüdudlarından kənarda 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimləri keçiriləcək.*



Sərəncamda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planını hazırlamaq və onun həyata keçirilməsini təmin etmək tapşırılıb.

Sərəncamda deyilir ki, Azərbaycan tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən otuz il keçir. Xalqımız indiyədək bu faciənin ağrı-acısı ilə yaşayır.

1987-ci ilin sonlarında yenidən ortaya atılmış qondarma Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda və Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlının öz doğma yurdlarından qovulmasına yönəlmişdi. Keçmiş Sovet İttifaqının iki respublikası arasında başlanan bu münaqişə XIX-XX yüzilliklərdə ermənilərin Azərbaycan torpaqlarında ardıcıl məskunlaşdırılması, habelə xalqımıza qarşı məqsədyönlü şəkildə aparılmış etnik təmizləmə və soyqırımı siyasətinin növbəti mərhələsi idi.

Ermənistan SSR-in respublikamıza ərazi iddialarına, radikal erməni millətçiləri tərəfindən qızışdırılan separatizmə və soydaşlarımız əleyhinə törədilən kütləvi zorakılıqlara SSRİ rəhbərliyinin bilavasitə və ya dolayısı ilə dəstək verməsi, habelə Azərbaycanın o zamankı rəhbərlərinin cinayətkar qətiyyətsizliyi və milli maraqlara zidd addımları xalqımızı respublikanın ərazi bütövlüyünün qorunması naminə ayağa qalxmağa sövq etdi. Beləliklə, respublikada geniş sosial spektrli xalq hərəkatı yarandı və proseslərin gedişi onun tədricən milli azadlıq hərəkatına çevrilməsinə zəmin yaratdı.

Azərbaycan xalqının haqqədalətin bərqərar edilməsi uğrunda səsini hiddətlə ucaldaraq imperiya buxovlarından birdəfəlik qurtulmağa can atmasından təşvişə düşən SSRİ rəhbərliyi, əslində, sovet totalitar rejiminin süqutunu daha da sürətləndirən müdhiş cinayətə əl atdı. Mərkəzi hakimiyyət 1990-cı il yanvar ayının 19 dan 20-nə keçən gecə beynəlxalq hüquq normalarını və ölkə qanunlarını büsbütün tapdalamaqla, əhalini xəbərdar etmədən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiqinə başladı. Sovet Ordusu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərin iştirakı ilə həyata keçirilmiş hərbi təcavüz nəticəsində paytaxtda dinc əhaliyə divan tutuldu, yüzlərlə insan qətlə yetirildi, yaralandı və itkin düşdü. Həmin qətliamdan bir gün sonra, yanvarın 21-də xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi. Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru dünyanın mütərəqqi qüvvələri də qətiyyətlə pislədi.

Azərbaycanda vaxtında dərindən araşdırılmayan və adekvat qiymətini almayan faciəyə yalnız bir neçə il sonra ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar.

Azərbaycan bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur.




Ən gözəl şeiriniz Cıdır düzünün çiçəkləri olacaq!

2-ci səhifədə



"Torpaqlarımız bizi gözləyir"

3-cü səhifədə



Sabahın zabitləri

7-ci səhifədə



"Fiziki hazırlığımız yüksək səviyyədədir"

8-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

*Ön xətdən reportaj*

# Ən gözəl şeiriniz Cıdır düzünün çiçəkləri olacaq!



*Dan yeri söküləndən göz küsdürən yel əsir. Yarpaq tökümümü ləngiyib, qışmı tələsir, hər nədirsə, nə payız kimi payızdı, nə qış kimi qış; hərdən əsən, hərdən kəsən yellər budaqlardan yarpaq salır. Əsə-əsə çılğınlaşan yel budaqdan saldığı yarpağı düşdüyü yerdə toxdamamış tərpədir, gah ağacın gövdəsinə çırpır, gah da naməlumluğa tərəf uzaqlaşdırır. Belə görüntülərin kövrəkliyindən keçib əsgərlərimizin əhatəsinə tələsirəm...*

Səngərlərə çatmışıq. Salamlaşmağa beş-altı addım qalmış ayaq saxlayıram. Ötən ezamiyyətdə bu mövqedə döyüş növbətçiliyindən qayıdanda kəlmələşdiyim, qətiyyəti, aydınlığıyla duyulan vətənpərvərliyi könlümə yatan əsgər Valeh Rəhimov məndən səngər şeiri istəmişdi. Əsgərləri "Salam, əsgər qardaşım!" şeiriylə salamlayıram:

*Qəhrəmanlıq sorağın*
*düşüb hər kəndə, əsgər!*
*Dayandığın səngəri*
*köçür sərhədə, əsgər!*

Misraların bugünkü könül söhbətinə başlanğıc olması üçün Valehin timsalında hərbi hissənin əsgərlərinə, bu hərbi hissənin timsalında ordumuzun bütün əsgərlərinə xitabən deyirəm ki, şeir duyğulara səhər mehidi. Şeiri siz də sevirsiniz, yəni, çox incə duyğularınız var. Bu gözəl duyğulara Vətən sevginizin haləsi deyirəm.

Xoş kəlmələr xoş ovqatı bir qədər də gözəlləşdirir. Zabit Ruslan Novruzov bayaq dediyim misraların mahiyyətini xatırladır:

- Şeirdə deyildiyi kimi, Azərbaycan əsgərinin 2016-cı ilin Aprel döyüşlərində qazandığı qələbənin, Günnüt zəfərinin sorağı sərhədlərimizdən uzaqlarda da hər şəhərə, hər kəndə çatdı. Bu qələbələr Ali Baş Komandanın əmriylə Azərbaycan əsgərinin qazanacağı Böyük Qələbənin başlanğıcıdı. Döyüşəcəksiniz, qələbə qazanacaqsınız, dayandığınız səngəri sərhədlərə köçürəcəksiniz, yəni, torpaqlarımızı işğaldan azad edəcəksiniz. "Salam, əsgər qardaşım!" şeiri bunları ifadə edir, yəni, Azərbaycan poeziyası, Azərbaycan poeziyasının timsalında Azərbaycan ədəbiyyatı sizə inanır, sizə güvənir, sizi yaranacaq əsərlərin baş qəhrəmanı bilir...

Zabitin sözünə qüvvət olaraq əsgərlərə deyirəm ki, qazanacağınız qələbəyə görə, sizə ən gözəl şeir Cıdır düzünün çiçəkləri, çiçəklərin şeh dolu ləçəklərinin titrəyişi, İsa bulağının "Qarabağ şikəstəsi"nə qarışan zəngulesi olacaq...

Azərbaycan əsgərinə yazılmış şeirlə başlayan söhbətimiz Vətənə, dövlətə, dövlətçiliyə sədaqəti, hərbi xidməti, döyüş növbətçiliyini əhatələyən kəlmələrlə davam edir.

Əsgər Əli Əliyev deyir ki, ilk döyüş növbətçiliyini biz də heç zaman unutmayacağıq. Həmin günün həyəcanını, bu həyəcanın ovqatını qələbə günü könül xoşluğuyla yaşayacağıq.

Əsgərin dediklərini təkcə ötənlərin xatırlanması, yaxın gələcəkdə yaşanılacaq tarixi anların istəyi deyil, həm də müharibə şəraitində Azərbaycan əsgərinin hərbi xidmətin mahiyyətinin düsturlaşmış ifadəsi bilirəm - sözlərlə ifadə edilməsə də, şəhidlərin ruhuna ehtiram duyulur. Cıdır düzünün çiçək şeirlərinə, şeir çiçəklərinə ad olacaq anları ömrümüzdə yaşatdığımız şəhidlərin ruhuyla nəfəs-nəfəsə yaşayacağıq...

Bayaqdan bəri səmimi, şirin söhbətləşmənin cazibəsindən yan-yörəmizə boylanmağa macalımız olmayıb: payızın son ayında, belə bir ayamda əsən yellər ön xətdə, mövqelərdə budaqlardan yarpaq salmaq qüdrətində deyilmiş. Bunu duyuram və "Əsgərlərin dönməz qətiyyəti bəzən təbiətə də hökm etmək gücündə olur", - deyirəm. Zabitin məmnunluq hopan baxışlarının eynini ayrı-ayrı mövqelərdə də görmüşəm. Bu bənzəyişi əsgərlərin yüksək döyüş və mənəvi-psixoloji hazırlığının bənzəyişi bilirəm. Zabit Ruslan Novruzov ürəyimdən keçənləri duyubmuş kimi deyir:

- Bayaq başqa hərbi hissədə bir əsgərin dediklərini xatırlatdınız: "Əsgər döyüş növbətçiliyini Vətən sevgisiylə qoşa aparır...". Obrazlı deyilib, məzmunlu, düşündürücü deyilib. Tanımaza-bilməzə həmin əsgərə təşəkkürümü bildirirəm. İnanıram ki, bizim əsgərlərimiz də belə düşünür.

Əsgər Emil Abdullayevin söhbətə qoşulması əsgərlərin düşüncələrinin döyüş növbətçiliyiylə bağlılığına vəsilə olur:

- Hərbi xidmət haqqında düşüncələrimiz yeniyetməlikdən, çağırışaqədərki dövrdə genişlənir. Bizdən bir neçə yaş böyüklərlə, hərbi xidmətdən qayıdan qohumlarla, qonşularla söhbətlərimiz hərbi xidmət haqqında biliklərimizi artırıb. Bilmişik ki, döyüş növbətçiliyində olacağıq, yəni, düşmənlə üz-üzə dayanacağıq. Döyüş növbətçiliyinin nə olduğunu həmin vaxtlardan bilsək də, ilk döyüş növbətçiliyinin həyəcanını əsgər yoldaşlarım kimi mən də heç zaman unutmaram. Dediklərini xatırlatdığınız əsgər hamımızın mənəvi qardaşıdı. Çox gözəl deyib, həqiqətən də, döyüş növbətçiliyini əsgər özünün Vətən sevgisiylə qoşa aparır.

Emil döyüş növbətçiliyinə gedən əsgərləri göstərir:

- Onların da bizim kimi düşündüyünə əmin olun. Döyüş növbətçiliyinə gedən əsgər daha güclü olur. Bu anlarda o əsgərlər, mən də daxil olmaqla, hamımızdan güclüdür.

Sonuncu fikir də "Döyüş növbətçiliyini əsgər özünün Vətən sevgisiylə qoşa aparır" fikri qədər düşündürücüdü, könüləyatımlıdı; vətənpərvərlik baxımından əvvəlki fikri gözəl tamamlayır. Bu tamamlamanı hərbi xidmətin qüdrəti bilirəm.

Söhbətimiz hərbi xidmətlə davam edir. Əsgər Kamran Həsənov deyir ki, hərbi xidmət Vətən qarşısında borc ödəməkdi. "Bunu biz də bilirik, yeniyetmələr də, çağırışçılar da. Əsgər olaraq hamımız Hərbi anda, dövlətə sədaqətlə xidmət edirik. Biz də bilirik ki, hərbi xidmət əsgəri həyat üçün olduqca gərəkli olan xarakter əsasında formalaşdırır. Bunu mənə atam deyirdi, hərbi xidmətdə özüm də əmin olmuşam."

Mən soruşmaq istəyirdim ki, zabit Ruslan Novruzov soruşur:

- Gərəkli xarakter deyəndə nəyi nəzərdə tutursan?

- Hərbi xidmət bizə məsuliyyətlilik öyrədir, sədaqətlilik duyğusunu dönməzləşdirir, ünsiyyətcilliyi inkişaf etdirir, Vətən, torpaq, dövlət haqqında düşüncələrimizi dərinləşdirir, - əsgər dostluğunu yaşatmağın gərəkliyini öyrədir. - əsgər qətiyyətlə cavab verir.

Kamranın maraqla dinlənilən kəlmələri zabitə də, əsgərlərə də, mənə də könül xoşluğu verir. Ön xətdə, səngərlərdə belə könül xoşluğunu çox yaşamışam. Heç biri digərinə bənzəməyib. Zabitin əsgərin dediklərinə münasibəti də belə bir könül xoşluğuna dönür:

- Diqqətçəkən bu düşüncə əsgərin mənəvi-psixoloji hazırlığının səviyyəsinin göstəricisidir. Yüksək döyüş hazırlığı bu səviyyədə mənəvi-psixoloji hazırlıqla tamamlanan əsgər, əlbəttə ki, güclü əsgərdir. Əminəm ki, ordumuzun bütün əsgərləri belə düşünür. Əsgərlərimiz Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaq, torpaqlarımız işğaldan azad ediləcək.

Zabit Daşqın Ələkbərov döyüş hazırlığını yüksəldən, təkmilləşdirən təlimlərdən, əsgər İslam Hüseynov mənəvi-psixoloji hazırlığı artıran müxtəlif tədbirlərdən danışır. Əsgər Səfər Mürvətov əsgər Kamran Həsənovun dediyi bir mətləbə toxunur - əsgər dostluğunun yaşadılmasının gərəkliyinə:

- Əsgər yoldaşımız Samir Həsənov tərxis edildikdən sonra Qazaxdan bölməmizə, yəni, hamımıza bir məktub göndərmişdi. Yazdıqları hamımızın yadındadı. "Özüm tərxis olundum, ürəyim sizin sıranızda xidmətini davam etdirir..." - cümləsi hamımızı kövrəltdi. Əsgər dostluğunu mülki həyatda Samir kimi yaşadacağıq.

- Samirin məktubu həm döyüş əzmimizi, qələbə ruhumuzu artırdı, həm də bir daha əmin olduq ki, əsgər dostluğu son nəfəsəcəndi, - əsgər Kamran Bəşirov əsgər dostunun sözünə qüvvət olaraq belə deyir.

Səmimiyyətlə, inamla deyilən kəlmələri səmimiyyətlə, inamla dinləyirik. Kamranın dediklərini Səfər tamamlamışdı, Səfərin dediklərini zabit tamamlayır:

- Onda hamınız bir daha əmin oldunuz ki, hərbi xidmət müharibə şəraitində tərxis olunmaqla tamamlanmır...

Bugünkü səngər söhbətinin belə məntiqi, vətənpərvərlik baxımından gərəkli, dəyərli sonluğu ürəyimizi tellendirir...

Xeyli əvvəl deyilsə də, "Qalib Azərbaycan əsgərinə ən gözəl şeir Cıdır düzünün çiçəklərinin şeh dolu ləçəklərinin titrəyişi, İsa bulağının "Qarabağ şikəstəsi"nə qarışan zəngulesi olacaq" fikrini "Hərbi xidmət müharibə şəraitində tərxis olunmaqla tamamlanmır" fikrinin davamı bilirəm; elə bil ürəyimizə damıbmış ki, belə bir fikir deyiləcək...

"Ən gözəl şeirin səslənəcəyi günə az qalıb - Ali Baş Komandanın döyüş əmri, döyüşlər, qazanılacaq qələbə və həmin şeir...", - deyirəm. Zabit Ruslan Novruzov qürurla əsgərlərə baxır. Əsgərlər bu qürurun boyuna çatan inamla deyirlər: Bəli, həmin günün ərəfəsindəyik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı bəyanatının işığında həmin şeirə sarı gedirik!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Türkiyənin nümayəndə heyəti Azərbaycan Hərbi Dəniz Qüvvələrinin təlim məşqlərini izləyib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Bakıda səfərdə olan Türkiyə Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti Azərbaycan Hərbi Dəniz Qüvvələrinin praktiki təlim məşqlərini izləyib.

Məşqlər zamanı gəminin "döyüşə" və "səfərə" hazırlanması, körpüdən aralanması və baza məntəqəsindən çıxmasının təşkili, eləcə də dar keçidlərdə, məhdud görünüş zamanı və dayaz sularda üzən zaman idarə olunması tədbirləri icra edilib. Bundan əlavə, gəmi heyətinin sükanın və girokompasın sıradan çıxması zamanı fəaliyyəti, gəminin hər hansı bir hissəsində baş verən yanğın zamanı davamlılıq uğrunda mübarizə fəaliyyəti yerinə yetirilib.




Günün planına əsasən, gəminin lövbərə durması və lövbərdən çıxması, dənizə düşən adamın xilas edilməsi, gəminin körpüyə yan alması və baza məntəqəsinə girişin təşkili və digər tapşırıqlar icra olunub.

Praktiki məşqlərə cəlb olunan şəxsi heyət qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

Məşqlər zamanı yerinə yetirilən proseslərdə qardaş ölkənin dənizçiləri də iştirak edib, təcrübələrini bölüşüblər. Qonaqlar dənizçilərimizin fəaliyyətini və bacarığını yüksək qiymətləndiriblər.

# Ulu Öndərin şüara çevrilən müdrik fikirləri Azərbaycan əsgərini daha böyük qələbələrə ruhlandırır





Müasir Azərbaycan Respublikasının və Azərbaycan Ordusunun qurucusu ulu öndər Heydər Əliyevin xatirəsi bu günlər bir daha ehtiramla yad edilir, məzarı və şərəfinə ucaldılan möhtəşəm abidələri minnətdarlıqla ziyarət olunur. Dahi rəhbərin zərb məsələ, atalar sözünə çevrilən müdrik fikirləri tez-tez xatırlanır və bu fikirlər hər bir kəsə Vətənə, xalqa, dövlətə necə sədaqətlə xidmət etməyin yollarını göstərir.

"Tarix həmişə hər şeyi öz yerinə qoyur", "Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir", "Ədalətsizliklə ədalət bərpa etmək olmaz", "Öz ana dilini bilməyən adamlar şikəst adamlardır", "Ağıl olan yerdə zora ehtiyac yoxdur", "Xalq gərək daim öz kökünü xatırlasın", "Tariximizin hər səhifəsi bizim üçün əzizdir", "Tarix heç nəyi silmir", "Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir", "Gərək nəbzin Vətənin nəbzi ilə vursun"...

Bu fikirlərin hər biri hava, su kimi qiymətlidir, zamanın sınaqlarından çıxıb. Dünən də dəyərli idi, bu gün də dəyərlidir, sabah da öz dəyərini itirməyəcək, xalqımızı, millətimizi daha xoşbəxt gələcəyə aparacaqdır.

Ulu Öndərin Vətən müdafiəçiləri qarşısında, Azərbaycan Ordusunun şəxsi heyəti qarşısında etdiyi hər bir çıxış, söylədiyi hər bir fikir də bu gün taleyini Vətənə xidmət peşəsinə həsr edənlərin, Azərbaycan əsgərinin fəaliyyətini istiqamətləndirir və onların yollarına mayak kimi işıq saçır.

26 il öncə əbədiyaşar Ali Baş Komandanımız Bakı ətrafında yerləşən hərbi hissələrdən birində döyüşçüləri cəbhəyə yola salarkən, onlara xeyir-dua verərkən demişdir: "Vətənin, torpağın keşiyində daha cəsarətlə, daha mətinliklə durun. Vətəni qoruyun. Xalq, Vətən sizin şücaətini layiqincə qiymətləndirəcək və heç vaxt unutmayacaqdır".

Dekabrın 13-də həmin hərbi hissənin ərazisində yeni salınmış müasir hərbi şəhərciyin klubunda Müdafiə Nazirliyi və Bakı Bələdiyyə Teatrının birgə təşkilatçılığı ilə keçirilən növbəti vətənpərvərlik tədbirində Ulu Öndərimizin şüara çevrilən bu fikirləri də bir daha xatırlanıb və Azərbaycan əsgərini daha böyük qələbələr qazanmağa ruhlandırıb.

Çıxış edənlər bildiriblər ki, Bakı Bələdiyyə Teatrının təqdim edəcəyi "Çingiz dastanı" ikihissəli mənzum tamaşasının (əsərin müəllifi və quruluşçu rejissoru Abdulla Qurbanidir) qəhrəmanı da Vətənin, torpağın keşiyində daha cəsarətlə, daha mətinliklə durub, Vətəni qoruyub, Vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalıb.

O, xalqımızın, Vətənimizin şücaətini layiqincə qiymətləndirdiyi, heç vaxt unutmadığı, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş, adı əbədiləşdirilmiş Azərbaycan Ordusunun əsgəri Çingiz Salman oğlu Qurbanovdur.

Tamaşaçılar Çingizin qəhrəmanlıqlarla dolu, Vətənə, xalqa, dövlətə həsr olunan qısa, lakin şərəfli ömür yolunu maraqla izləyib və hər kəs Vətənə Çingiz kimi qəhrəman, valideynlərinə layiqli oğul, ordumuza isə mərd, qorxmaz, dəyanətli, cəsarətli əsgər olmağa söz verib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

---

*Nümunəvi xidmət*

# "Torpaqlarımız bizi gözləyir"

*Dünyada elə peşələr var ki, onları peşə adlandırmağa insanın dili gəlmir. Hərbçi peşəsi də məhz bu qəbildəndir. Hərbçi adının ali mərtəbəyə yüksəlməsi özünü bu peşəyə qəlbi ilə həsr etmiş insanların böyük zəhmətinin nəticəsidir. Ömür dediyin cəmiyyətə bəxş olunan ziya və sevincin qədəridir. Yaşanılan ömür yollarında hərbçi ömrünün, hərbçi taleyinin öz yeri var. Bu peşə daha çox ilahi istedad, təşkilatçılıq qabiliyyəti, tabeliyində olan hərbi qulluqçuların ürəyinə yol tapmaq bacarığı, xeyirxahlıq, Vətənə və xalqa xidmət, vəzifə borcuna sadiqlik tələb edir.*

Bu peşənin yolçularından biri də 1991-ci ildə Neftçala rayonunda dünyaya göz açan baş leytenant Xəzər Cəfərovdur. Xəzər böyüdüyü mühitdə vətənpərvərlik hissi ilə tərbiyə olunub. Bu hiss, bu sevgi ruhuna elə hopub ki, böyüdükcə, həyatı dərk etdikcə Vətəninə, torpağına, əhatəsindəki insanlara, seçdiyi peşəyə sevgiylə, məhəbbətlə baxmağa başlayıb. Onun nəticəsidir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun cəbhəboyu zonada yerləşən hərbi hissələrə son səfəri zamanı qiymətli hədiyyələrlə mükafatlandırdığı hərbi qulluqçuların sırasında baş leytenant Xəzər Cəfərovun da adı var.

Görüş zamanı həmsöhbətim aldığı qiymətli hədiyyənin mənəvi dəyərini vurğulayaraq bildirdi ki, bütün müharibələrdə silah ruhla döyüşür və qalib gələn ruh olur: "Cənab nazirin hərbi qulluqçularımızın döyüş, mənəvi-psixoloji hazırlığı və sosial-məişət şəraiti ilə maraqlanmaq



məqsədilə hərbi hissəmizə gəlişi yaddaşımdan heç bir zaman silinməyəcək. Etiraf edim ki, Müdafiə nazirimiz ilə görüş gözlənilməz, həyəcanlı, sevincli və qürurlu idi. Təqdim etdiyi hədiyyənin dəyərinə gəldikdə isə ordunun gücü yalnız onun sahib olduğu texnika və ya təlimlərdə deyil. Əlbəttə ki, döyüşlər zamanı texnikanın rolu danılmazdır. Amma bütün dünya müharibələrində baş verənlər göstərir ki, döyüşləri qazandıran insan amilidir, ruh yüksəkliyidir, əsgərin əzmidir. Bu baxımdan Müdafiə naziri general-polkovnik Zakir Həsənovun mənə və digər hərbi qulluqçulara təqdim etdiyi qiymətli hədiyyələrin dəyəri mənəvi etalonla ölçülür. Mən bu hədiyyəni, hərbi hissənin rəhbərliyi başda olmaqla, bütün hərbi qulluqçularımıza təqdim olunmuş hədiyyə hesab edirəm."

Zabit onu da bildirdi ki, döyüşdə qələbənin qazanılmasında müasir texnikanı idarə etmək üçün əldə olunan biliklər və döyüşdə ruh yüksəkliyinin, qələbə əzminin olması mühüm vasitədir.

"Hər kəsin dəyəri onun Vətənə, torpağa bağlılığı, insanlara sevgisi ilə ölçülür", - deyə həmsöhbətim sözünə davam etdi:

- Həyatın, yaşamağın, işləməyin özü əsl sevgi deməkdir. Sevgi insanda ikinci ruhdur. Fikrimcə, hər kəs formanı geyinə bilər, ancaq hər kəs zabit ola bilməz. Hər zaman vətənpərvər oğullarımızın Vətənimizə, torpağımıza olan sonsuz sevgisinin sayəsində uğur qazanacağımıza inanmışam və bu gün də inanıram. Bu sevginin nəticəsidir ki, Aprel döyüşləri ordumuzun işğalçı Ermənistan üzərində qələbəsi kimi tarixə düşdü. Həmin tarixi əbədiləşdirmək məqsədilə "Aprelin qəhrəmanlıq zirvəsi" adlı bir kitab araya-ərsəyə gətirmək istəyirəm. Üzərində işlədiyim əsərdə Azərbaycanın Milli Qəhrəmanı Samid İmanovdan, leytenant Qabil Orucəliyevdən, leytenant Sahil Şirinovdan və digər şəhid olan qəhrəman oğullarımızdan bəhs edilir. Məqsədim odur ki, torpaqlarımızı qorumaqla yanaşı, Vətənə qələmimlə də xidmət edim. Gələcək nəsil Vətənimizin qəhrəman oğulları haqqında məlumatlı olsunlar, onlardan örnək götürsünlər, eyni zamanda, bilsinlər ki, xalqımızın əsrlərlə nəsildən-nəslə ötürdüyü qəhrəmanlıq ənənələri bu gün də yaşamaqdadır. İllər sonra Qarabağda qazanılan zəfər xalqımıza hədsiz sevinc və qürur hissi bəxş etdi. Ali Baş Komandanımızın orduya diqqət və qayğısı, Müdafiə Nazirliyi rəhbərliyinin bu diqqət və qayğıdan irəli gələn tələbləri, Vətənə olan sevgimizin sayəsində bu zəfərin davamı mütləq gələcək. Torpaqlarımız bizi gözləyir.

**Mayor
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

---

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**17 dekabr 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Aşağı Əskipara, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, dekabrın 12-də Azərbaycan Ordusunun bütün qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, hərbi birlik və birləşmələr, xüsusi təyinatlı təhsil müəssisələrində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü münasibətilə bir sıra tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, şəxsi heyətin və ictimaiyyət nümayəndələrinin də iştirak etdiyi tədbirlərdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət himni səsləndirilib.

Tədbirlərdə çıxış edənlər Ulu Öndərimizin şərəfli ömür yolundan, Vətənimiz qarşısında tarixi xidmətlərindən danışıblar. Qeyd edilib ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə onun uzaqgörən daxili və xarici siyasəti nəticəsində ölkəmizin nüfuzu artıb, hərtərəfli inkişafa nail olunub, müstəqilliyimizin əbədi və dönməz olması təmin edilib.

Bu gün digər sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də Ulu Öndərin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirlərdə ulu öndər Heydər Əliyevin şərəfli həyat və fəaliyyətindən bəhs edən sənədli filmlər də nümayiş etdirilib.

* * *

Naxçıvan Qarnizonunda ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilib.



Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə general-mayor Elman Orucov ulu öndər Heydər Əliyevin zəngin ömür yolundan və ordu quruculuğu istiqamətindəki tarixi fəaliyyətindən danışıb. Bildirilib ki, Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru Natiq Əhmədov, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev və digər çıxış edənlər ulu öndər Heydər Əliyevin ölkəni idarəetmə bacarığı, təcrübəsi və şəxsi nüfuzunun Azərbaycanın bugünkü intibahının əsasını qoyduğunu bildiriblər.

Tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları, Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri və "Nərgiz" uşaq bağçasının fidanları ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Ümummilli liderimiz Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən sənədli film nümayiş olunduqdan sonra tədbirdə fəal iştirak edənlər mükafatlandırılıblar.

Silsilə tədbirlərin davamı kimi əsgərlər Heydər Əliyev Muzeyini ziyarət ediblər. Ulu öndər Heydər Əliyevin həyatının müxtəlif məqamlarını əks etdirən eksponatlar şəxsi heyətdə böyük maraq doğurub.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərb hissəsi**

Bu gün tarixi şəxsiyyətlərin ömrü xalqının, dövlətinin taleyinə işıqdır. Bu işıq Günəş misallıdı - başlanğıcı var, sonu isə əbədiyyətdi. Nə qədər bəşəriyyət var, bu işıq da olacaq, tarixdə də yaşayacaq, yaddaşlarda da. Ümummilli liderimiz Heydər Əliyev belə tarixi şəxsiyyətlərdən idi.

Sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə respublikanın istər iqtisadi, istərsə də sosial inkişafı digər respublikalarla müqayisədə kifayət qədər yüksək idi. Bunu siyasətçilər də, iqtisadçılar da Heydər Əliyev dühasının nəticəsi bilirdi. Həmin illər həm də Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının inkişafı illəri kimi tarixləşdi. Neçə-neçə yazıçı, şair, bəstəkar, rəssam ittifaq miqyaslı fəxri adlara layiq görüldü. O illərdə Azərbaycandan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülən elm xadimləri, yazıçılar, şairlər çoxluq təşkil edirdi. Bu, Heydər Əliyev kimi böyük tarixi şəxsiyyətin nüfuzunun nəticəsi idi...

Heydər Əliyevin Azərbaycana hakimiyyətə gəlməsi olduqca mürəkkəb, çətin bir dövrə təsadüf edir. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı, idarəçilik olduqca pərakəndə vəziyyətdə idi, respublikada anarxiya hökm sürürdü, yaradılmış yerli özünümüdafiə batalyonları torpaqları qorumaqdan daha çox ayrı-ayrı ambisiyalı fərdlərin mənafeyinin icraçısı idi. Torpaqların müdafiə olunması çətinləşmişdi. Belə bir şəraitdə xalq böyük tarixi şəxsiyyət Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi.

Ayrı-ayrı hərbi hissələrdə, ön xətdə, səngərlərdə əsgərlərlə söhbətləşəndə xalqımızın, dövlətçiliyimizin zaman anlamında dünənindən də danışırıq. Ulu Öndərin misilsiz xidmətləri də böyük qürurla, ehtiramlarla xatırlanır. Onda əsgərlərin dediklərini yaddaşıma da köçürmüşəm, kağızlara da, qəzetimizdə də bu haqda yazılar dərc edilib.

Əsgər Elman Qafarov:

- Mən qonşumuz Səməd kişinin söhbətlərini xatırlayıram. Səməd kişi deyirdi ki, biz orta təhsili başa vuranda böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi idi. Onda mənim kimi bir kəndli balasının universitetin hüquq fakültəsinə qəbul olunmasına kimsə inanmazdı. Mən qəbul olundum. Bunu Heydər Əliyevin dövlətçilik naminə şəffaflıq, ədalət, tələbkarlığı bildik. Belə bir insan dövlətin daha da çiçəklənməsini təmin etdi. Səməd kişinin oğulları da, mənim atam da Ulu Öndərin Azərbaycanda hakimiyyətə gəlməsindən sonra təhsil alanların sırasındadır. Onlar da Ulu Öndərin Azərbaycan naminə xidmətlərindən böyük qürurla danışırlar. Mən belə bir tarixi şəxsiyyətin nizami ordu kimi formalaşdırdığı orduda xidmət etməyimlə qürur duyuram. Ulu Öndər deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam." Mən də həm azərbaycançılığımla fəxr edirəm, həm də hərbi xidmətdə olmağımla.

Əsgər Vüqar Əliyev:

- Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev deyib: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Biz güclü bir dövlətin güclü ordusunda xidmət edirik. Ordumuzun gücü 2016-cı ilin Aprel döyüşlərində də təsdiqləndi, 2018-ci ildə ordumuzun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr edilmiş paradlarda da. Ulu Öndərin nizami ordu kimi formalaşdırdığı ordunun gücü xalqın, dövlətin, azərbaycançılığın gücüdür. Azərbaycan əsgəri yüksək döyüş əzminə, qələbə ruhuna malikdir. Hər birimiz Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa hazırıq.

Əsgər Murad Hüseynov:

- Orta məktəbin son sinfində oxuyanda bir televiziya verilişinə baxmışdım. Ulu Öndər haqqında



bilmədiyim faktlar mənim də düşüncələrimə hopdu. Dahi rəhbəri həmin verilişə baxandan sonra daha əhatəli tanıdım. Mənə elə gəlir ki, Heydər Əliyev kimi böyük tarixi şəxsiyyətlər haqqında nə qədər yazılsa da azdı, nə qədər oxusan da azdı. Onların ömrünün hər anı yazılmalı, oxunmalı bir kitabdı.

Mən fəxr edirəm ki, qurucusu ulu öndər Heydər Əliyev olan müstəqil Azərbaycan Respublikasının vətəndaşıyam, Ulu Öndərin nizami ordu kimi formalaşdırdığı, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin nəinki regionun, dünyanın ən güclü orduları sırasına çıxartdığı orduda xidmət edirəm.

**Mübariz MUSAYEV,
"Azərbaycan Ordusu"**

Bəşəriyyətin dünyaya bəxş etdiyi tarixi şəxsiyyətlərdən olan ümummilli lider Heydər Əliyevin anım günündə "N" hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Vəli Səfiyev fikirlərini bölüşdü:

- Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin güclü əsaslarla qurduğu dövlət bu gün güclü orduya və güclü iqtisadiyyata əsaslanır. Bu gün müstəqilliyimizin, dövlətçiliyimizin qarantı təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli ordumuzdur. İnkişaf və tərəqqisinin yeni mərhələsinə qədəm qoyan nizami ordumuz regionda ən güclü orduya və xalqın güvənc yerinə çevrilib. Ümummilli Liderimizin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi siyasətin Ali Baş Komandanımız İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi ordumuzun qüdrətini gün-gündən artırır.

Azərbaycan Ordusunun hərbi qulluqçusu kimi bütün inkişafı mən öz hərbi hissəmizin həyatında və şəxsi həyatımda açıq-aydın hiss edirəm. Ali Baş Komandanımızın digər sahələrə olduğu kimi, hərbiyə də diqqət və qayğısı böyükdür. Şəxsi heyətin elə bir üzvü yoxdur ki, hansı amal və məqsəd uğrunda xidmət etdiyini, mübarizə apardığını dərindən dərk etməsin. Hər bir zabit, gizir və əsgər çalışır ki, üzərinə düşən məsuliyyəti dərindən başa düşsün və öz vəzifə borcunu yerinə yetirsin. Biz bunu xalqımız, Ali Baş Komandanımız və Əbədiyaşar Liderimiz qarşısında həyata keçirəcəyimiz mənəvi borc hesab edirik. İnanırıq ki, mənəvi borcdan güc alan qüdrətli Azərbaycan Ordusu və onun şəxsi heyəti tezliklə işğal altında olan tarixi torpaqlarımızı geri qaytaracaq. Zəngin hərbi tarixə malik Azərbaycan xalqı öz ordusunun əzm və qüdrətinə arxalanaraq dövlət quruculuğu yollarında daha inamla addımlayacaq və yeni zəfərlər qazanacaq. Azərbaycan dünya dövlətləri tərəfindən tanınan sərhədləri çərçivəsində öz müstəqilliyinə nail olacaq. İndiki kimi onda da Azərbaycan Ordusu Azərbaycan Respublikasının qarantına çevriləcək.

- Dövləti orduya, ordunu dövlətə bağlayan da bu qarşılıqlı inam və etibardır, - deyə əsgər sözünə davam etdi. - Memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimiz bu gün Ulu Öndərimizin Azərbaycan xalqına ən böyük töhfəsidir. Hər bir Azərbaycan vətəndaşının borcu isə Heydər Əliyevin şah əsəri olan Azərbaycanı qoruyub yaşatmaq, onun ideyalarını uğurla həyata keçirməkdir. Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev həmişə ürəklərdə yaşayacaq.

**(Ardı 5-ci səhifədə)**

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq

(Əvvəli 4-cü səhifədə)

Əsgər Malik Rzayev isə öz növbəsində dedi:

- Ümummilli lider Heydər Əliyev şəxsiyyəti hər zaman Azərbaycanın bu gününə və gələcəyinə işıq salıb, mənalı və şərəfli ömür yolunun parlaq səhifələri isə xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil edib. Müasir Azərbaycan tarixinin elə bir mərhələsi yoxdur ki, orada Ulu Öndərin fəaliyyətinin izləri görünməsin. Əbədiyaşar Ali Baş Komandanımız fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı ilə yaşayıb yaradıb, hər zaman milli ideyalara bağlı olub. Ümummilli Liderimiz daim xalqını, Vətənini düşünüb, Azərbaycanın xoşbəxt gələcəyi naminə fədakarlıqlar göstərib, bir sözlə, dövlətçilik tariximizdə özünün müstəsna yerini müəyyənləşdirib.

Əsgər M.Rzayev onu da qeyd etdi ki, bu gün Azərbaycan xalqının, o cümlədən Azərbaycan Ordusunun və onun şəxsi heyətinin qəlbində Əbədiyaşar Ali Baş Komandanımıza sevgi və məhəbbət sonsuzdur. “Bu dahi insan bir vətəndaş, bir hərbi qulluqçu kimi, mənim yaddaşımda qurucu və xilaskar dövlət xadimi, milli lider və xalqının məhəbbətini qazanan Öndər kimi qalıb. Bütün ölkəmizdə olduğu kimi, hərbi hissəmizdə də ulu Öndərin Vətən və xalq qarşısındakı xidmətləri minnətdarlıqla xatırlanır, onun əziz xatirəsi daim uca tutulur.”

Dekabrın 12-də Ümummilli Liderimizin anım günündə komandirlərimizin müşayiəti ilə biz əsgərlər də Ulu Öndərimizin əziz xatirəsini yad etmək məqsədilə Heydər Əliyev Mərkəzini ziyarət etdik. Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, zəngin siyasi irsini əks etdirən ekspozisiyalarla, müxtəlif bölmələrlə tanış olduq. Hərbi hissəmizdə ulu öndər Heydər Əliyevə həsr olunmuş sənədli filmlərə və "Unudulmaz Lider" adlı sərgiyə tamaşa etdik."

- Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev bu gün öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi ilə xalqın qəlbini fəth edib, - deyə əsgər bildirdi. - İftixar hissi keçirirəm ki, müstəqil Azərbaycan dövlətinin ona layiq, onun müstəqilliyini qorumağa və möhkəmləndirməyə qadir olan güclü ordusu var və mən bu ordunun əsgəriyəm. Bu gün ordumuz tam yüksək səviyyədə formalaşıb, müasir tələblərə, beynəlxalq standartlara uyğun qurulub. Ordumuzun şəxsi heyəti Vətəni qorumağa, tarixi ədaləti bərpa etməyə və Ümummilli Liderimizin müəyyənləşdirdiyi yola getməyə hazırdır. Onun həyat yolu və ictimai-siyasi fəaliyyəti biz əsgərlər üçün çox zəngin xəzinə və böyük örnəkdir. Ən vacibi odur ki, Ümummilli Liderimizin sayəsində bu gün bizim məqsədimiz, amalımız, yolumuz bəllidir. Bu yol xalqımıza işıqlı gələcək vəd edir.

**Mayor
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**



“N” hərbi hissəsində olarkən gizir Habil Vəliyev bildirdi ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli ordumuzda xidmət etmək hər kəs kimi onun üçün də qürurludur.

- Əbədiyaşar Komandanımız haqqında düşüncələri bölüşmək çox çətindir. Dahi şəxsiyyəti cümlələrlə ifadə etmək mümkün deyil. Ulu Öndərin xalqımız, dövlətimiz, ordumuz üçün etdiklərindən cild-cild kitablar yazmaq lazımdı. Bu gün hər birimiz müstəqil Azərbaycanda azad və firavan yaşayırıqsa, ana dilimizdə danışırıqsa, milli ordumuzda xidmət ediriksə, bunun üçün Ümummilli Liderimizə borcluyuq. Bu gün qürurlanıram ki, Ulu Öndərin ən çox diqqət yetirdiyi və rəğbət bəslədiyi peşə sahibiyəm. Əbədiyaşar Liderimizin "Vətənini müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir", "bütün peşələr şərəflidir, lakin hərb peşəsi bütün peşələrdən şərəflidir" kəlamları hər bir hərbçiyə yüksək qiymət və dəyər verdiyinin bariz nümunəsidir. Bu dəyərli sözləri yaddaşıma əbədi olaraq həkk etmişəm və həyat yoluma nümunə bilmişəm.

Biz xoşbəxtik ki, ölkəmizə Heydər Əliyev kimi müdrik insan, siyasi lider rəhbərlik edib. Azərbaycan xalqının bu böyük oğlu müasir müstəqil ölkəmizin memarı və xilaskarıdır. Onun həyat və fəaliyyəti, zəngin irsi bütün nəsillərə örnək olan bir məktəbdir. Uşaqlıqdan Heydər Əliyev adı, dühası ilə fəxr etmişəm. Xalqını, torpağını sonsuz məhəbbətlə sevən, dövlətinin inkişafı, xalqın rahat və firavan yaşaması yolunda yorulmadan mübarizə aparan bu böyük şəxsiyyətin dediyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözlərini hər eşitdikcə qəlbim iftixar hissi ilə dolur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin cismani yoxluğundan 16 il ötür. Ulu Öndər cismən aramızda olmasa da, bu gün əminliklə deyə bilərəm ki, onun ölməz ideyaları xalqımızın mütərəqqi inkişaf yoluna parlaq işıq saçır, hər birimizi vahid məram və məqsədlər ətrafında birləşdirir. Həm də onunla təsəlli tapırıq ki, Ulu Öndərin möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyev kimi layiqli davamçısı var.

Ordu sıralarında xidmət edən hərbçi kimi əminliklə deyə bilərəm ki, Əbədiyaşar Komandanın banisi olduğu Azərbaycan Ordusu bu gün regionun ən qüdrətli ordusudur. Biz ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad edilməsi üçün Prezident, Ali Baş Komandan İlham Əliyevin əmrini hər an uğurla yerinə yetirməyə hazırıq və buna tam qadirik.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**



Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu və banisidir. Heydər Əliyev Azərbaycan xalqının, bütöv türk dünyasının bütün tarixi boyu yetişdirdiyi ən böyük şəxsiyyət idi. Bütün mənalı ömrünü Azərbaycan xalqının gələcəyinə həsr edən Ümummilli Lider parlaq əməlləri ilə tarixin yaddaşında əbədi yaşayacaq.

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə böyük diqqət ayırdığı məsələlərdən biri də hərbi təhsil və milli hərbçi kadrların hazırlanması idi. O dövrdə - 1970-1971-ci illərdə aparılmış hesablamalara görə ordu sıralarında azərbaycanlı zabitlərin, generalların sayı həddindən artıq az idi. Təbiidir ki, bütün bunlar ulu öndər Heydər Əliyevi narahat etməyə bilməzdi. Ümummilli Lider sonralar onu daim qayğılandıran bu məsələ barəsində demişdir: "Çar dövründə müsəlmanlar orduya çağırılmırdılar, hətta elə bir vaxtda rus ordusunda bizim Əlağa Şıxlinski, Mehmandarov kimi generallarımız var idi. Niyə indi başqa millətlərin marşalı, generalları var, bizim isə yox?".

O illərdə ölkəyə rəhbərlik edən böyük tarixi şəxsiyyət Heydər Əliyevin cəsarəti və qətiyyəti ilə Sovet rejiminin hökm sürdüyü bir vaxtda ölkəmizin paytaxtı Bakı şəhəri Zığ qəsəbəsi 2 nömrəli 8 illik internat məktəbinin bazasında hərbi təyinatlı xüsusi internat məktəbi yaradıldı. Beləliklə, azərbaycanlı gənclərin keçmiş İttifaqın ali hərbi məktəblərində hərbi təhsil almaları üçün geniş imkanlar açıldı. Hərbi təmayüllü xüsusi internat məktəbinə general Cəmşid Naxçıvanskinin adı verildi. Gələcəkdə zabit olacaq gənclər burada oxuyub orta təhsil alır, hərbi hazırlıq keçir, rus dilini mükəmməl mənimsəyir, bundan sonra isə uğurla İttifaqın müxtəlif ali hərbi məktəblərinə qəbul olunurdular.

Ümummilli lider Heydər Əliyev böyük əziyyətlər bahasına yaratdığı və öz övladı kimi sevdiyi Hərbi liseyi heç vaxt unutmurdu. Ulu öndər Heydər Əliyev hər il Mərkəzi Komitənin Büro üzvləri ilə bərabər hərbi məktəbə gedir, vəziyyətlə yerində tanış olur və təhsil ocağının kollektivi qarşısında çıxış edirdi.




Ümummilli Lider sonralar iftixar dolu o günləri xatırlayaraq deyirdi: "Çox sevinirdim ki, onun məzunları - azərbaycanlılar zabit olurlar, Sovet ordusunda qulluq edirlər. Əgər Azərbaycan öz suverenliyi, tam azadlığı barədə fikirləşirsə, o, ilk növbədə, öz milli ordusu, milli zabitləri barədə fikirləşməlidir. Mən bunların hamısını düşünürdüm."

Ulu öndər Heydər Əliyevin yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Lisey bu gün də fəaliyyətini uğurla davam etdirir. Yenicə əsaslı təmirdən çıxmış Hərbi liseydə gənclərin hərbi sirləri öyrənmələri üçün hərtərəfli şərait yaradılıb. İndi ordumuzun gələcək zabitləri burada hərbçi peşəsinə daha mükəmməl şəkildə yiyələnirlər.

Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə olarkən əsaslı təmirdən sonra kursantlar üçün yaradılmış şəraiti görəndə çox sevindik, çox fərəhləndik. Bizi sevindirən təkcə yaradılan şərait yox, həm də kursantlardan eşitdiklərimiz xoş sözlər oldu.

Kursant Səmid İsayev dedi ki, C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olmaq çoxdankı arzum idi. Bu hərbi təhsil ocağına hazırlaşdığım günlərdə məktəbin yaranma tarixi ilə maraqlandım. Öyrəndiklərimdən çox məmnun qaldım. Əgər hazırlığım yüksək olsaydı, ulu öndər Heydər Əliyevin qurub yaratdığı məktəbdə oxuyacaqdım. Bundan sonra daha da həvəslə hazırlaşdım. İmtahandan uğurla keçib, istəyimə çatdım. Budur, ümummilli liderimiz Heydər Əliyevin yaratdığı Hərbi liseydə oxuyuram. Təhsil almağımız üçün burada hərtərəfli şərait yaradılıb. Bunlara görə biz kursantlar Ali Baş Komandana, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımızı bildiririk.

- Ümummilli liderimiz Heydər Əliyevin yaratdığı C.Naxçıvanski adına Hərbi Liseydə oxumaqdan qürur duyuram, - deyə kursant Toğrul Qasımov bildirdi. - Məktəbdə gələcəyin zabiti kimi hazırlanmağımız, formalaşmağımız üçün hərtərəfli şərait yaradılıb. Bu şərait bizi hərbi bilikləri öyrənməyə daha da həvəsləndirir. Həm zabitlər, həm də müəllimlərimiz çalışırlar ki, bizlərə döyüş vərdişlərini və hərbi bilikləri mükəmməl şəkildə öyrətsinlər. Biz kursantlar da öz növbəmizdə dərs və məşğələlərdə fəal iştirak edir, bilikləri dərindən mənimsəyirik. Biz ulu öndər Heydər Əliyevin yaratdığı məktəbdə onun adına layiq oxumağa çalışırıq. Ümummilli Liderin həyat yolu bizim üçün bir örnəkdir. Ulu öndər Heydər Əliyevin xatirəsini əziz tutur, bu dahi şəxsiyyətin adını və əməllərini daim qəlbimizdə yaşadırıq.

**Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Şagirdlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oldular

*Gənc nəslin vətənpərvərlik tərbiyəsi dövlətin gənclər siyasətinin əsas istiqamətlərindən biridir. Dövlətimiz gənc nəslin Vətənə, xalqa məhəbbət, adət-ənənələrimizə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük diqqətlə yanaşıb. Vətənpərvərlik fədakarlıq, qəhrəmanlıq, məğlubedilməzlik hisslərini formalaşdırır, inam hissini gücləndirir. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amillərdəndir.*

Ümummilli lider Heydər ƏLİYEV:

*Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır.*



Müdafiə Nazirliyinin dəstəyi ilə Ulu Öndərin anım günü ərəfəsində Ərəstun Mahmudov adına 220 nömrəli məktəb-liseyin müəllim, şagird və valideynləri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oldular.

Əvvəlcə şagirdlər ümummilli lider Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad edərək, abidəsi önünə tər gül dəstələri düzdülər.

Məktəblilərə Azərbaycan Ordusunun qüdrəti, malik olduğu döyüş texnikası, potensialı barədə ətraflı danışıldı. Qonaqlar məktəbin ərazisi, kursant yataqxanası, trenajor bölməsi ilə də tanış oldular.

Ali Hərbi Məktəbin zabiti polkovnik-leytenant Tural Ağacanov məktəb rəhbərliyi adından qonaqları salamlayaraq bildirdi: "Uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasının əsası həmişə hörmət və ehtiramla yad etdiyimiz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ulu Öndərin gənc nəsildən gözləntiləri ilə bağlı bir fikrini xatırlayıram. "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır". Gənclərimizi Ulu Öndərin düşündüyü kimi formalaşdırmaq üçün hər birimiz məsuliyyətimizi dərindən dərk edirik. Çünki uşaqlar təkcə bir evin deyil, bütün el-obanın ən qiymətli, ən dəyərli sərvəti, xalqın gələcəyidir. Gələcəyi qorumaq hər birimizin borcudur."



Sinif rəhbəri Gülnarə Quliyeva qeyd etdi ki, bu tədbirə dəstək olduqlarına görə Müdafiə Nazirliyinin rəhbərliyinə, Ulu Öndərin adını daşıyan Ali Hərbi Məktəbin komandanlığına və liseyimizin direktoru Lətifə Əzimovaya təşəkkürümü bildirirəm. Belə görüşlər məktəblilərin Vətənə sevgi kimi yüksək milli-mənəvi dəyərlərlə formalaşmasında, ordumuza sevgi və ehtiramın aşılanmasında böyük rol oynayır. 6-10 yaş arası uşaqların ən həssas dövrüdür. Məktəblilərə bu yaşlarda aşılanan duyğular onların yaddaşına daha güclü həkk olunmaqla yanaşı, gələcəkdə faydalı bir vətəndaş olmalarında da, peşə, həyat seçimi etmələrində də böyük əhəmiyyət kəsb edir.

Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. Bu bir müəllim olaraq bizim ən vacib vəzifələrimizdir. Təhsil Nazirliyi sistemində hərbi vətənpərvərlik tərbiyəsi istiqamətində böyük işlər görülür. Bütün bunları nəzərə alaraq biz də "Vətəni və bizi qoruyan ordumuzu sevir, əsgərimizlə qürur duyuruq" devizi altında şagirdlərimizlə mütəmadi olaraq hərbi hissələrə, qoşun növlərinə və xüsusi təyinatlı təhsil müəssisələrinə ekskursiyalar təşkil edirik. Müdafiə Nazirliyinin rəhbərliyi də bu işdə təhsil ocağımıza dəstək olur. Ulu Öndərin anım günündə burada olmağımızdan qürurluyuq."

Şagirdlərə Ali Hərbi Məktəbin yaranma tarixi və fəaliyyəti ilə bağlı geniş məlumat verildikdən sonra ekskursiya silah və atış kafedrasından başlandı. Burada onlar digər texnikalarla yanaşı, silahlanmaya yeni qəbul olunmuş döyüş texnikaları ilə də tanış oldular. Mayor İslam Hacıyev məktəblilərə buradakı silahlar haqqında məlumatlar verdi, onların suallarını cavablandırdı. Şagirdlərdən İsmayıl Əlili, Əli İbrahimsoy, Elşən Kərimli, Polad Hüseyin və Məhəmməd Nurullayev zabitin verdiyi məlumatları böyük həvəslə, maraqla, istəklə dinləyirdilər.

Onur Tənifəyev, Nurlan Qasımov və Zeyd Quluzadə Ali Hərbi Məktəblə tanışlıqdan sonra bir gün burada təhsil almaq istədiklərini bildirərək dedilər: "Daima televiziyada hərbi vətənpərvərlik yönümlü verilişləri izləyirik. Biz istəyirik ki, böyüyəndə Heydər babanın adını daşıyan məktəbin məzunu olaraq Vətənə müqəddəs borcumuzu verək." Xədicə Qəniyeva, Humay Mirzəyeva, Leyla Orucəliyeva və Şəfiqə Novruzova hərbi həkim olmaq istədiklərini, əsgərlərimizin sağlamlıqlarının keşiyində dayanmaq arzusunda olduqlarını bildirdilər.



Ehtiyatda olan polkovnik-leytenant Nüsrəddin Səlimov elektron atış sinfində kursantların silah-sursatdan istifadə etmədən atışlar keçirdiyini bildirdi, kompüter atış trenajorunun xüsusiyyətlərindən danışdı.

Mayor Aydın Mehdiyev qonaqları kursant yataqxanasındakı şəraitlə tanış etdi.

Trenajorlar bölməsi haqqında məlumat verən mayor Elşən Mehdiyev qeyd etdi ki, bölmədə bütün ixtisaslar üzrə praktiki dərslər keçirilir. Bütün hazırlıqlar burada yekunlaşır, sonra isə poliqonda başa çatır. Bu bölmədə uşaqlar arsenaldakı silah-sursat, mühəndis, rabitə cihazları və avadanlıqları ilə əyani tanış oldular.

Kursantların gündəlik iş rejimi və nizam-intizam qaydaları haqqında ətraflı məlumat verildi.

Məktəbin klubunda yaradılan Heydər Əliyev Muzeyi ilə tanışlıq uşaqlar üçün çox xoş oldu. Şagirdlər leytenant Aynur Baxışovanın Ulu Öndərin həyat və fəaliyyəti haqqında verdiyi məlumatları diqqətlə dinlədilər.

Şagirdlərdən Adil Məmmədov, Yağmur Həsənli, Mətin Məmmədli, Leyla Abdullazadə, Zeynəb Rəhimli, İnci Quluzadə, Fidan Nəbizadə, Sunay Məmmədli, Fatimə İsmayılbəyli, Elanur Qurbanova Ulu Öndərə həsr olunmuş şeirlər söylədilər.

Vətənə, torpağa, bayrağa, xalqa sevgi ilə yaşayıb böyüyənlər Vətən sevgisinin, Vətənə bağlılığın, Vətənin müqəddəsliyinin nə olduğunu mükəmməl dərk edirlər. Həyatlarının hər dönəmində Vətən kəlməsinin qürurunu yaşayırlar. Yalçın Əlizadə atasının və Aprel şəhidi olan əmisi mayor Elnur Əliyevin burada təhsil aldıqlarını bildirdi. Məktəb haqqında geniş məlumata malik olmasıyla hər kəsi heyrətləndirən bu balaca böyüyəndə ordu sıralarında qulluq etmək arzusundan danışdı. Vətənimizi əmisi kimi sevəcəyinə söz verdi.

Sonda şagird Əli Bəşirli bildirdi ki, bütün bu gördükləri onda bir fikir formalaşdırıb. "Mən inanıram, həm də çox inanıram. Bizim ordumuz bütün ordulardan güclüdür. Əsgərlərimizin gücü sayəsində işğal altında olan torpaqlarımız işğaldan azad ediləcək, Gülnarə müəllimə bizi Şuşaya, Laçına, Kəlbəcərə, Zəngilana aparacaq."

Arzular çöhrələrdə təbəssümə, sevincə döndü.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

# Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti Moskvada “Beynəlxalq ordu oyunları-2020” yarışlarının ilkin planlaşdırma konfransında iştirak edib



Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin idarə rəisi general-mayor Ənvər Əfəndiyevin rəhbərlik etdiyi nümayəndə heyəti "Beynəlxalq ordu oyunları-2020" yarışlarının Moskva şəhərində keçirilən ilkin planlaşdırma konfransında iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir zamanı yarışların şərtləri və qaydaları, hazırlıq işləri müzakirə olunub, eləcə də müsabiqənin təşkil olunacağı ərazilərə baxış keçirilib.

"Beynəlxalq ordu oyunları-2020" yarışlarının gələn ilin avqustun 23-dən sentyabrın 5-dək keçirilməsi planlaşdırılır.



*Müstəqil Azərbaycanın memarı və qurucusu olan ümummilli lider Heydər Əliyev tarixdə dərin iz qoymuş dahi şəxsiyyətdir. Azərbaycanlı olmağı ilə daim öyünüb fəxr edən Ulu Öndər bütün şərəfli ömrünü xalqın rifahına, Azərbaycanı qurub yaratmağa və müstəqil ölkəsini dünyada tanıtmağa sərf etdi. Bu gün böyük inam və qətiyyətlə deyə bilərik ki, müasir Azərbaycan tarixinin ən parlaq, ən işıqlı və ən möhtəşəm səhifələri ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.*

*Hərbi təhsil*

# Sabahın zabitləri

Hələ Sovet hökumətinin ən sərt dövründə Heydər Əliyev Azərbaycanda indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratdı. Bu gün gənclərin böyük həvəslə oxuduqları xüsusi təyinatlı təhsil müəssisəsinin əsası 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və uzaqgörən siyasəti nəticəsində qoyuldu. Ulu Öndər bütün ömrü boyu yaratdığı Hərbi liseyə böyük diqqət və qayğı göstərdi. Hərbi məktəbi öz övladı qədər sevən ümummilli lider Heydər Əliyev "Naxçıvanski adına lisey mənim üçün bir övladdır" - deyirdi. Bu təhsil ocağı fəaliyyətdə olduğu müddətdə ordu üçün yüzlərlə, minlərlə peşəkar hərbçi kadrlar hazırlayıb.

Bu gün də Silahlı Qüvvələrimiz üçün zabitlər hazırlayan Cəmşid Naxçıvanski adına Hərbi Liseydə işlər həmişəki ahəngi ilə davam edir. Əsaslı təmirdən sonra təhsil ocağında tədris və hərbi kadrların hazırlanması üçün hərtərəfli şərait yaradılıb. Hərbi liseyin zabitləri, pedaqoji kollektivi bu şəraitdən səmərəli istifadə edərək ordumuz üçün bacarıqlı, peşəkar zabitlər hazırlayırlar.

Hərbi liseyin zabitləri, müəllimləri, kursantları ilə görüşüb söhbət etdik, tədrisin gedişi ilə yaxından maraqlandıq, dərs prosesini izlədik. Gördüklərimizdən, şahidi olduqlarımızdan məmnun qaldıq. Əmin olduq ki, ordumuzun gələcək zabitləri daha bacarıqlı və hazırlıqlı olacaqlar.

Hərbi liseydə zabitlərdən, müəllimlərdən, kursantlardan eşitdiyim xoş sözlərdən duyğulandım...

Dəhlizdə sakitlik idi, sinif otaqlarında isə dərs gedirdi. Otaqlardan birinə daxil olduq. Coğrafiya dərsidir. Lövhənin qarşısında dayanan müəllim dərsin mövzusunu kursantlara izah edir, xəritədə müxtəlif əraziləri göstərirdi. Coğrafiya müəllimi ilə söhbət edib tanış olduq. Öyrəndik ki, Elnarə Orucova Sumqayıt Dövlət Universitetinin Coğrafiya fakültəsini bitirib. İki ildir ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə işləyir .



- Gələcəyin zabitlərinə dərs deməkdən, elm öyrətməkdən, coğrafiya fənnini tədris etməkdən çox məmnunam, - deyə Elnarə Orucova söhbətə başladı. - İşimə məsuliyyətlə yanaşaraq tədris etdiyim fənni kursantlara dərindən öyrətməyə çalışıram. Öyrətməklə yanaşı, həm də çalışıram ki, fənni kursantlara sevdirim. Onlarda bu sahəni öyrənməyə böyük həvəs və maraq oyadım. Kursantların şəxsiyyət kimi formalaşmasında, tərbiyə olunmasında, bilikləri mənimsəməsində, bir vətəndaş kimi dövlətə, dövlətçiliyə layiq böyüməsində, cəmiyyətdə layiqli yer tutmasında müəllimin rolu çox böyükdür. Buna görə də işimə məsuliyyətlə yanaşır, coğrafi bilikləri kursantlara geniş, hərtərəfli tədris edirəm. Məqsədim budur ki, onlar qoynunda dünyaya göz açıb yaşadığımız Vətənimizi sevsinlər, yurdumuza böyük məhəbbət bəsləsinlər. Müşahidələrim göstərir ki, məqsədimə çatmışam. Kursantlara fənnimi sevdirmişəm, onların qəlbində doğma Vətənimizə sevgi, məhəbbət hissləri oyatmışam. Parta arxasında oturan bu kursantlara ordumuzun sabahkı zabiti, generalı və qəhrəmanları kimi baxıram. Hərbi liseydə çalışan müəllimlərin üzərinə ikiqat məsuliyyət düşür. Çünki biz müəllimlər həm də sabahımızın zabitlərini, generallarını, qəhrəmanlarını hazırlayırıq. Hərbi liseydə müəllim işləmək, kursantlara dərs demək asandır. Çünki burada ciddi nizam-intizam və əlverişli şərait var. Biz müəllimlər də bu şəraitdən bəhrələnərək kursantlara lazımi biliklər öyrədirik. Bizim üçün belə gözəl şərait yaratdıqlarına görə Ali Baş Komandana, Müdafiə Nazirliyinin rəhbərliyinə müəllimlər adından minnətdarlığımı bildirirəm. Mən bir müəllim kimi gündən-günə ordumuzun gələcək zabitlərinə dərs deməkdən çox məmnunam.

Kursantlarla da söhbət edib ürək sözlərini dinlədik.

- Hərbçi ailəsində dünyaya göz açmışam, - deyə Sərvər Salayev sözə başladı. - Ona görə də hələ kiçik yaşlarımdan hərbçi olacağıma qərar vermişdim. Bilirdim ki, hərbçi olmaq asan iş deyil. Bunun üçün gərək hazırlığın yüksək olsun. Arzuma çatmaq üçün dərslərimə fikir verir, daim biliklərimi artırırdım. Çalışqanlığım müsbət nəticə verdi. İmtahandan 430 bal toplayaraq Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul oldum. Artıq illərdən bəri ürəyimdə gəzdirdiyim arzuma çatmışam. Özümü çox xoşbəxt hiss edirəm. Elə ilk günlərdən başlayaraq dərslərimi yaxşı oxuyur, biliklərimi artırmağa çalışıram. Atam Ənvər Salayev 23 ildir ki, ordumuzun sıralarında xidmət edir. Hərbi təhsilimi başa vurandan sonra mən də onun kimi Silahlı Qüvvələrimizin sıralarında xidmət edəcəm.

Kursant Qəlbinur Babayev Lənkəran rayonunda anadan olub. Söhbət zamanı dedi ki, müəllimlərimiz tez-tez bizi muzeylərə, tarixi abidələri ziyarət etməyə aparırdılar. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ev muzeyinə də gedirdik. Hər dəfə bu muzeyə gedəndə qəlbimdə hərbçi olmaq arzusu yaranırdı. Böyüdükcə bu sahəyə marağım daha da artırdı. Bu həvəs, bu maraq məni Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirdi. Arzuma çatdığıma görə çox sevinirəm. Dərslərimi yaxşı oxuyur, biliklərimi, təcrübəmi artırıram. Özümü qarşıdakı şərəf dolu xidmətə hazırlayıram.

Kursantlardan Toğrul Qasımov, Səmid İsayev və başqaları ilə də həmsöhbət olduq. Onların xoş sözlərini eşitdik, gələcək arzularını dinlədik. İnanırıq ki, belə hazırlıqlı, bilikli, bacarıqlı və vətənpərvər kursantlar gələcəkdə ordumuzun sıralarında zabit kimi layiqincə xidmət edəcək, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaqlar. Sinif otağından da elə bu inamla ayrıldıq.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə “Patriot” sistemləri almaq üçün ABŞ-a sorğu göndərib



Türkiyə "Patriot" hava hücumundan müdafiə sistemləri almaq üçün ABŞ-a göndərdiyi sorğunun cavabını gözləyir.

Bu barədə Xarici İşlər naziri Mövlud Çavuşoğlu Qətərdə keçirilən Doha forumunda deyib.

"Türkiyə ABŞ-ın hələ də onun müttəfiqi olduğuna inanır. Heç kim S-400 zenit-raket komplekslərinin alınmasına dair Rusiya ilə əldə olunan sazişi ləğv edə bilməz, bu, artıq baş tutub. Rusiyanın təklifi daha sərfəli idi və biz onu qəbul etdik. İndi isə biz ABŞ-dan "Patriot" sistemlərini almağa hazırıq və onların cavabını gözləyirik", - deyə Çavuşoğlu bildirib.

Nazir, eyni zamanda ABŞ-ın Türkiyəyə sanksiya tətbiq edəcəyi təqdirdə Ankaranın buna cavab vermək məcburiyyətində qalacağını da vurğulayıb.

### Əfqanıstanda taliblər doqquz əsgəri öldürüb



Əfqanıstanda döyüşlər nəticəsində hökumət qüvvələrinin doqquz hərbçisi həlak olub.

Bu barədə məlumat Əfqanıstan Müdafiə Nazirliyinin rəsmi "Twitter" səhifəsində yerləşdirilib. Məlumata əsasən, döyüşlər Qəzni əyalətinin Qarabağ dairəsində baş verib. Hücumun məsuliyyətini "Taliban" hərəkatı üzərinə götürüb.

Yerli mətbuat ölənlərin sayının daha çox olduğunu iddia edir. Məsələn, 1TV telekanalı döyüşlər nəticəsində 25 hərbçinin həlak olduğu barədə məlumat yayıb.

Əfqanıstanda hökumət qüvvələri ilə kənd rayonlarında xeyli üstünlüyə yiyələnərək böyük şəhərlər istiqamətində hücumları genişləndirən "Taliban" hərəkatının silahlıları arasında qarşıdurmalar uzun müddətdir davam edir. Həmçinin ölkə ərazisində İŞİD qruplaşmasının da fəallığı artır. Əfqanıstanın milli müdafiə və təhlükəsizlik qüvvələri beynəlxalq koalisiyanın hərbi dəstəyi ilə silahlı qruplaşmalara qarşı bütün ölkə boyu birgə əməliyyatlar keçirirlər.

### KXDR raket buraxılışı məntəqəsində daha bir uğurlu sınaq keçirdiyini bəyan edib



Koreya Xalq Demokratik Respublikası (KXDR) yeni və vacib raket buraxılışı məntəqəsində daha bir uğurlu sınaq keçirdiyini bəyan edib.

Bu barədə Koreya Mərkəzi Teleqraf Agentliyi (KCNA) məlumat yayıb.

Hələlik, detalları açıqlanmayan testin dekabrın 13-də yerli vaxtla saat 22:41-dən 22:48-dək Sohe raket buraxılış məntəqəsində həyata keçirildiyi bildirilir. KCNA bu sınağın nəticələrinin ölkənin strateji nüvə silahından müdafiə qabiliyyətini möhkəmləndirəcəyini yazır.

### Antarktidada planetin quru hissəsində ən dərin çökəklik aşkarlanıb



Amerikalı alimlər Antarktidada buzların altında Yer kürəsinin ən dərin çökəkliyini aşkarlayıblar.

Çökəklik Şərqi Antarktidada yerləşən Denman buzlağının altında tapılıb. Dünyanın quruda ən dərin nöqtəsi dəniz səviyyəsindən 3,5 kilometr aşağıda yerləşir. Bundan dərin yer isə yalnız okeanlarda mövcuddur. Alimlərin fikrincə, bu tapıntı gələcəkdə Cənub qütbünün hansı dəyişikliyə məruz qalacağının tədqiqi baxımından önəmlidir.

Buna qədər dünyanın ən çökək nöqtəsi dərinliyi dəniz səviyyəsindən 413 metr aşağı olan Ölü dəniz sahilləri hesab olunurdu.

**AZƏRTAC-ın materialları əsasında**

Ovqat

# İki şəhid anası nəvə toyunun sevincini yaşayıb



Müharibə əlilləri, veteranları və şəhid ailələri Azərbaycan Respublikası Prezidentinin və Müdafiə Nazirliyi rəhbərliyinin daim diqqət mərkəzindədir. Bu qəbildən olan vətəndaşların sosial problemləri dövlət tərəfindən yüksək səviyyədə həll edilir, onlara ardıcıl olaraq hərtərəfli maddi və mənəvi dəstək göstərilir.

Respublikamızın ərazi bütövlüyünün qorunub saxlanılmasında, xidmət etdikləri hərbi hissələrin qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsində fərqlənən və döyüşlərdə şəhidlik zirvəsinə ucalan Malik və Sabir Mustafayev qardaşlarının anası da hər cür diqqət və qayğı ilə əhatə olunub.

Dekabrın 13-də Simuzər ananın övladlarından sonra mehrini saldığı iki nəvəsindən biri olan Elşadın toy mərasimində ağbirçək ana ömür yolları Qarabağ uğrunda döyüşlərdə qırılan igid övladlarının acısını qismən də olsa unutdu. Həmin gün Müdafiə Nazirliyinin nümayəndələri, millət vəkilləri, incəsənət ustaları və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti nənənin sevincinə şərik oldular, Simuzər anaya nəvələrinin boya-başa çatmasında göstərdiyi fədakarlığa görə minnətdarlıqlarını bildirdilər.



Toy mərasimində ən görkəmli yerdə Azərbaycanın Dövlət bayrağının asılması, Dövlət himninin bütün iştirakçılar tərəfindən birlikdə ifa olunması salonda əsl qələbə əhval-ruhiyyəsi yaratdı.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova, İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabiti Mansur İbadov, Milli Məclisin deputatlarından Hadı Rəcəbli, Qənirə Paşayeva, Hüseynbala Mirələmov və başqaları çıxış edərək bəylə gəlini təbrik etdilər, Simuzər anaya gözaydınlığı verdilər.

Şəhid anası müntəzəm olaraq ailəyə göstərilən diqqət və qayğıya, eləcə də toyun yüksək səviyyədə təşkilində göstərilən köməyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# "Fiziki hazırlığımız yüksək səviyyədədir"

*Ön xətdə yerləşən bölmələrdən birində şəxsi heyətin fiziki hazırlıq məşğələsinin şahidi olduq.*

İlk həmsöhbətim məşğələ rəhbəri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Allahverdi Allahverdiyev bildirdi ki, əsgərlərin gündəlik fəaliyyəti günün nizam qaydasına uyğun olaraq həyata keçirilir və bu prosesə ciddi nəzarət edilir. Allahverdi ilə idman şəhərciyi boyunca gəzib şəxsi heyət üçün yaradılan şəraitlə tanış olduq.

- Ölkə rəhbərliyinin ordumuza göstərdiyi diqqət və qayğının təzahürüdür ki, bölməmizdə müasir standartlara uyğun formalaşdırılan idman şəhərciyi hərbi qulluqçularımızın istifadəsinə verilib, - deyə söhbətə başlayan hərbi qulluqçu idmanın əhəmiyyətindən də danışdı. "Döyüşdə uğur qazanmaq üçün hərbi qulluqçuların fiziki hazırlıqları yüksək səviyyədə olmalıdır ki, onlara verilən tapşırıqlar layiqincə icra edilsin. Şəxsi heyətin sağlamlığını, dözümlülüyünü artırmaq məqsədilə günün nizam qaydasına uyğun olaraq fiziki hazırlıq məşğələləri təşkil olunur. Düşmənlə mümkün əlbəyaxa mübarizədə onu zərərsizləşdirmək üçün gərək fiziki cəhətdən möhkəm olasan. Bizim də üzərimizə düşən əsas vəzifə əsgərlərimizi döyüşə hərtərəfli hazırlamaqdır. Torpaqlarımızı döyüş yolu ilə azad edəcəyimiz təqdirdə güclü ordunun güclü əsgəri düşmənin cavabını artıqlaması ilə verəcək".

Hərbi xidmətə Beyləqan rayonundan çağırılan əsgər Murad Qurbanlı da düşüncələrini bizimlə bölüşdü. "Bu gün ordu sıralarında xidmət edən əsgər kimi hər birimiz bir amala xidmət edirik. Komandirlərimiz tərəfindən bizə keçirilən dərsləri maraqla öyrənir, nümunəvi xidmət edir, verilən tapşırıqları vaxtında yerinə yetiririk. Tapşırıqları operativ şəkildə yerinə yetirmək üçün fiziki güc mühüm rol oynayır. Komandirlərimizin rəhbərliyi altında keçirilən fiziki hazırlıq dərslərində fəal iştirak edirik, öz sağlamlığımızı, immunitetimizi idman edərək daha da möhkəmləndiririk. İdman təkcə hərbi xidmətdə deyil, bizim gündəlik həyatımızda gümrahlığımızı təmin edən amillərdən biridir."



Əsgər Sadiq Hadizadə idmanın cüdo növü ilə məşğul olduğunu dedi. O, həmçinin bildirdi ki, torpaqlarımızın azad olunması uğrunda döyüşlərə hər zaman hazırdır. "Gənc yaşlarımdan cüdo ilə məşğul olmuşam. Bir çox turnirlərdə iştirak edərək, nailiyyətlər qazanmışam. İdmanla məşğul olmağım xidmət etdiyim müddətdə mənə çox kömək olub. Bəzən hava şəraiti, bölməmizin yerləşdiyi dağlıq ərazi tapşırıqların yerinə yetirilməsində bizə maneələr yaratsa da, fiziki hazırlığımız hesabına verilən tapşırıqların öhdəsindən gəlirik."

Güləşlə məşğul olan Elşad Həsənov da fiziki hazırlığın yüksək səviyyədə olmasının vacibliyini vurğuladı. "Hərbi xidmətdə fiziki göstəricilər mühüm əhəmiyyət kəsb edir. Bədən tərbiyəsinə önəm verib onu nəzarətdə saxlayan şəxsin öhdəsindən gələ bilməyəcəyi tapşırıq yoxdur. Komandirlərimiz bizlərin ruh yüksəkliyini təmin etmək, fiziki hazırlığımızı lazımi səviyyədə saxlamaq üçün əllərindən gələni əsirgəmirlər. Asudə vaxtlarımızda komandirlərimizlə voleybol, futbol oynayırıq. Sıramıza təzə qoşulan əsgərlərə yardımçı olur, normativlərin dəqiq və vaxtında yerinə yetirilməsində onlara köməklik göstəririk".

Əsgərlər Pərvin Rəhimli və Nəriman Məhərrəmov da fiziki hazırlığın insan həyatı üçün önəmindən danışdılar. Onlar idmana ordumuzda verilən önəmdən, xidmət etdikləri hərbi hissədə fiziki qabiliyyətlərini artırmaları üçün əlverişli şəraitin yaradıldığından danışdılar.

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Dekabr ayının sonunadək Azərbaycan Ordusunda 200 mindən artıq ağac əkiləcək

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ağacəkmə təşəbbüsünə qoşulan Azərbaycan Ordusunda növbəti ağacəkmə və yaşıllaşdırma aksiyası keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aksiya çərçivəsində ötən həftənin şənbə və bazar günləri ərzində birlik, birləşmə, hərbi hissələr, xüsusi təyinatlı hərbi təhsil müəssisələri, idarə və təşkilatların ərazilərində müxtəlif növdə 40 min ağac əkilib. Aksiya başlayandan bu günədək isə bu say ümumilikdə 100 mindən artıqdır.

Qeyd edək ki, ekoloji vəziyyətin daha da yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Ordusunda mütəmadi olaraq genişmiqyaslı yaşıllaşdırma işləri aparılır.

Ətraf mühitin mühafizəsinə və yaşıllıqların artırılmasına töhfə verən bu cür ağacəkmə aksiyalarının davamlı olaraq keçirilməsi və dekabr ayının sonunadək 200 mindən artıq ağacın əkilməsi planlaşdırılır.

# Bölmələr qış mövsümünə hazırdır

Azərbaycan Ordusunun cəbhəboyu zonada yerləşən bölmələrinin qış mövsümünə hazırlıqla əlaqədar təchizat və təminat işləri başa çatdırılıb. Yüksək dağ massivlərində döyüş növbətçiliyi yerinə yetirən hərbi qulluqçuların ərzaq təminatı, isti geyim və istilik üçün yanacaq ehtiyatı, silah və sursat təchizatı normaya uyğun şəkildə döyüş mövqelərinə çatdırılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, işğal olunmuş Azərbaycan torpaqlarındakı Ermənistan ordusunun bölmələri ilə üzbəüz mövqelərdə döyüş növbətçiliyi aparan Azərbaycan Ordusunun bölmələri qış mövsümünə tam hazırdır. Dəniz səviyyəsindən 1500-2000 metr hündürlükdə yerləşən mövqelərdə xidmət aparan şəxsi heyətin təchizat və təminatı qış ayları ərzində heç bir problem və çətinlik çəkmədən xidmət aparmağa imkan verir.

Qış istismar rejiminə keçidlə əlaqədar soyuq iqlim şəraitində, dağlıq-düzənlik ərazidə, gecə və gündüz rejimində fasiləsiz xidmət aparmaq üçün hərbi hissələrin döyüş qabiliyyəti artırılır, eləcə də döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün bütün zəruri tədbirlər həyata keçirilir.

Silah və texnikanın qış dövründə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilib. Döyüş texnikalarının və hərbi nəqliyyat vasitələrinin yanacaq-sürtkü materialları dəyişdirilərək ən çətin və soyuq iqlim şəraitində istismar olunması üçün döyüşə hazır vəziyyətə gətirilib.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1024
Nüsxə 4000